**AZƏRBAYCAN ELM FONDU**

Bakı şəhəri 07 mart 2023-cü il

**Azərbaycan Elm Fondunun**
# "Qarabağ-Azərbaycandır-2!"
**məqsədli qrant müsabiqəsinin keçirilməsi haqqında**

**E L A N**

Azərbaycan Elm Fondu azad edilmiş ərazilərimizin inkişafına töhfə verə biləcək müxtəlif elmi sahələri əhatə edən tədqiqat işlərinin stimullaşdırılması, Qarabağın qədim və orta əsrlər tarixinin araşdırılması, azad edilmiş bölgələrdə arxeoloji tədqiqatların aparılması, Qarabağın və ətraf bölgələrin tarixi-mədəni abidələrinin tədqiqinin həyata keçirilməsi və tarixi həqiqətlərin dünya elminə və ictimaiyyətinə çatdırılması, bölgənin kənd təsərrüfatının inkişafını təmin edən, ekoloji problemlərin aradan qaldırılması, enerji və su ehtiyatının yaradılması, turizm potensialının düzgün qiymətləndirilməsi və istifadəsinə gətirib çıxara bilən fundamental - tətbiqi xarakterli layihələrin həyata keçirilməsi məqsədilə **2023-cü il üçün "Qarabağ - Azərbaycandır-2!" qrant müsabiqəsini (AEF/MQM/QA-2/2023-3(45))** aşağıdakı şərtlər daxilində

**ELAN EDİR:**

**Layihələrin növləri və maliyyələşdirilmə həcmi:**

- **Fundamental və tətbiqi xarakterli** elmi-tədqiqat layihələri;
- **200 000 manatadək** maliyyə həcmli layihələr.

**Müsabiqənin keçirilmə müddəti:**

- Müsabiqədə iştirak etmək üçün layihələr **e-QRANT sistemi** ilə onlayn olaraq **2023-cü il 07 mart** tarixindən başlayaraq qəbul olunur;
- Müsabiqədə iştirak etmək üçün layihələrin **e-QRANT sistemi** ilə qəbulunun son tarixi **2023-cü il 27 aprel** saat 23:59-dur.
- Çap versiyasının qəbulu üçün son tarix **2023-cü il 28 aprel saat 17.00-dır.**

## Müsabiqənin prioritet istiqamətləri

"Elm haqqında" Azərbaycan Respublikasının Qanununda (maddə 3) göstərilmiş prioritetlər üzrə təqdim edilən layihələrə, həmçinin aşağıda göstərilən öncül istiqamətlərə üstünlük veriləcəkdir:

- **Qarabağın**

- tarixi, coğrafiyası, mədəniyyəti, tarixi abidələri;
- arxeoloji və etnoqrafik tədqiqatlar;
- iqtisadi və geosiyasi inkişafında kadr potensialının təşkili;
- təbii sərvətlərinin tədqiqi və düzgün istifadəsi.

- **Qarabağda**

- kənd təsərrüfatının və aqrar sənaye sahəsinin yaradılması və inkişafı;
- turizmin inkişafı;
- nəqliyyat sistemi;
- intellektual informasiya sistemləri və texnologiyaları sahəsində tədqiqatlar;
- "Ağıllı şəhər" texnologiyaları, kibertəhlükəsizlik;
- elm və təhsil;

- **Qarabağ müharibəsinin beynəlxalq münasibətlər sistemində yeri;**

- **Şəhid ailələri və qazilərin maddi rifahının təmin edilməsi;**

- **Psixoloji durumlarının təhlili və psixoloji dəstəyin verilməsi.**

## Cari müsabiqənin keçirilməsinin əsas prinsipləri:

- Bu qrantlar müvəqqəti olaraq yaradılmış elmi-yaradıcı kollektivlər tərəfindən təqdim edilmiş layihələrə verilir.
- Qrant layihəsi ilə müsabiqədə iştirak etmək istəyən alim və tədqiqatçılar layihənin təqdimindən əvvəl müzakirələr aparmalı, qrant layihəsinin mövzusunu, şərtlərini və digər müvafiq məsələləri qarşılıqlı şəkildə razılaşdırmalıdırlar.
- Müsabiqəyə təqdim edilən hər bir layihə həmin layihə üzrə rəhbərlə təmsil olunmalıdır.
- Müsabiqəyə orta saylı **(layihə rəhbəri və icraçılar daxil olmaqla 5 nəfərdən 10 nəfərədək)** müvəqqəti yaradıcı kollektivlər tərəfindən həyata keçirilməsi nəzərdə tutulan layihələr qəbul olunur.
- Layihə rəhbəri və icraçılar kifayət qədər təcrübəli, beynəlxalq əlaqələrə malik, nüfuzlu elmi nəşrlərdə dərc olunmuş məqalələri olan alimlər olmalıdırlar.
- **Layihənin icra müddəti layihədə qarşıya qoyulan elmi məsələnin həllindən asılı olaraq 2 il olmalıdır.**
- Elmi-tədqiqat qurumlarının planları üzrə mövzunun layihədə bilavasitə təkrarlanmasına yol verilmir.
- Fond tərəfindən əvvəlki müsabiqələr üzrə maliyyələşdirilmiş və hal- hazırda maliyyələşdirilən, həmçinin digər fond və qurumlar tərəfindən maliyyələşdirilən eyni mövzular və adlar üzrə layihələr müsabiqəyə qəbul olunmur.

- Fondun davam edən qrant layihələrinin rəhbər və icraçıları, bir qayda olaraq, bu müsabiqədə iştirak edə bilməzlər.
- Cari müsabiqədə hər bir şəxs yalnız bir layihə üzrə qrant iddiaçısı ola bilər (rəhbər və ya icraçı qismində).
- Müsabiqəyə təqdim olunmuş layihələr qaydalara uyğun olaraq texniki və elmi ekspertiza mərhələlərindən keçir.
- Müsabiqənin nəticələrinə görə qalib gəlmiş layihələrin rəhbərləri ilə Fond arasında layihənin icrası üzrə müqavilə bağlanılır və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçirilir.
- **Müsabiqədə iştirakın digər mühüm şərtləri:**
  - tətbiqi xarakterli;
  - multidissiplinar tədqiqatlar üzrə təqdim olunmuş;
  - müxtəlif akademik və təhsil qurumlarından, sahə elmi-tədqiqat institutlarından olan alim və tədqiqatçılar tərəfindən yerinə yetirilməsi planlaşdırılan tədqiqat mövzuları üzrə təqdim olunmuş layihələrə elmi ekspertizanın nəticələri əsasında seçim zamanı üstünlük veriləcəkdir.

- Qrant layihəsi çərçivəsində elmi məqsədlər üçün tələb olunan əsas vəsaitlər (elmi cihazlar, avadanlıq və qurğular, elmi fəaliyyət üçün məmulatlar, ləvazimat və qeyri- maddi aktivlər və s.), iş və xidmətlər layihənin ümumi büdcəsinin 35%-dən (vergi və rüsumlar daxil olmaqla) artıq ola bilməz.

**Layihələrin tərtibatı və təqdim olunması:**

- Bu müsabiqəyə layihələr yalnız Fondun **“e-QRANT”=“Qrant layihələrinin Elektron İdarəolunması Sistemi” (http://e- grant.aef.gov.az/)** vasitəsilə təqdim edilə bilər. Bu sistem **“ASAN-İmza”**dan istifadəni nəzərdə tutur.

- **Diqqət!**
- **“Asan-imza”**nı həm layihə rəhbəri, həm də layihədə iştirakı nəzərdə tutulmuş bütün iştirakçılar əldə etməli, bu şəxslərin hamısı qeydiyyatdan keçməli və **“virtual şəxsi kabinet”**lərini formalaşdırmalıdırlar. Layihə bir qayda olaraq **“e-QRANT”** sistemində qeydiyyatdan keçmiş layihə rəhbəri tərəfindən təqdim edilir, layihə rəhbəri yalnız qeydiyyatdan keçmiş və **“virtual şəxsi kabinet”**ə malik şəxsləri layihəyə iştirakçılar qismində dəvət edə bilər. Əks halda elmi kollektivin formalaşdırılması mümkün olmayacaqdır.

- Texniki problemlərlə qarşılaşmamaq üçün layihənin təqdimini son günlərə saxlamamaq tövsiyə olunur. Fondun internet portalında **“e-QRANT”** sistemində qeydiyyatdan keçməklə bağlı müvafiq təlimat yerləşdiriləcək və onlayn məsləhət seminarlarında izahlar veriləcəkdir.

- Qrantların verilməsi üzrə müsabiqənin keçirilmə prinsipləri, müsabiqədə iştirak etmək üçün layihələrin verilməsi qaydaları, layihələrin ekspertizasının ümumi qaydaları, layihələrin həyata keçirilməsi şərtləri, müsabiqələrin xüsusiyyətləri də daxil olmaqla qrantların verilməsi üzrə müsabiqənin keçirilməsi qaydaları ilə Azərbaycan Elm Fondunun 2023-cü il 24 fevral tarixli Qərarı ilə təsdiq edilmiş "Elmi-tədqiqat proqramlarının, layihələrinin və digər elmi tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə müsabiqələrinin keçirilməsi Qaydaları"nda tanış olmaq olar.

- **Diqqət!**
- **"e-QRANT" sistemi vasitəsilə təqdim olunmuş layihənin son PDF versiyası (1 nüsxə Azərbaycan dilində və 1 nüsxə ingilis dilində, sənədlər (vəsiqə, diplomlar, iş yerindən təqdimat) çap olunmaqla Fondun icraçı direksiyasına (Bakı şəhəri, Yusif Səfərov küçəsi, 27, 9-cu mərtəbə) həftəniniş günlərində (bazar ertəsi – cümə) saat 10:00-dan 17:00-dək birbaşa çatdırmaqla və qeydiyyatdan keçirmək yolu ilə təqdim olunmalıdır.**

**Ümumi şərtlər:**

- Müsabiqənin keçirilməsi qaydaları və müddəti çərçivəsindən kənar təqdim olunan layihələr müsabiqənin texniki ekspertiza mərhələsindən olaraq keçmir və elmi ekspertiza mərhələsinə buraxılmır. Müsabiqəyə təqdim edilmiş sənədlər geri qaytarılmır. Müsabiqədə iştirak məqsədilə, o cümlədən layihələrin ekspertizası mərhələlərində saxta sənəd, imza və məlumatların təqdim olunması layihənin elmi ekspertizadan kənarlaşdırılmasına səbəb olur.

- Müsabiqəyə təqdim edilmiş bütün layihələrin ideyasının obyektiv formada orijinal ifadəsi müəlliflik hüququnun obyekti kimi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçiriləcəkdir.

- Müsabiqədə iştirakla bağlı ciddi problemlər yarandığı təqdirdə Fondun icraçı direksiyası ilə e-mail və ya telefon vasitəsilə əlaqə saxlanılması tövsiyə olunur.

- Sualların elektron poçt ünvanına göndərilməsi təqdir olunur. Digər tərəfdən, layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində, **e-QRANT** sisteminə qoşulma və ondan istifadə üzrə, həmçinin qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə **məsləhət seminarlarının** keçirilməsi nəzərdə tutulmuşdur. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində dərc olunacaqdır. Seminarlarda iştirak təqdir olunur.

**Hörmətli qrant iddiaçıları!**

**"Qarabağ - Azərbaycandır-2!" qrant müsabiqəsi** üzrə 2023-cü ildə göstərilən tarix və saatlarda məsləhət seminarları keçiriləcəkdir. Seminarların keçirilməsində məqsəd qrant iddiaçılarına müsabiqəyə təqdim olunacaq layihələrin tərtibatı, həmçinin e-QRANT sistemindən və ASAN-imzadan istifadə üzrə məsləhətlərin verilməsi, ortaya çıxan sualların cavablandırılmasıdır. Seminarlar Azərbaycan Elm Fondunun ofisində (Bakı şəhəri, Y.Səfərov küçəsi, 27, 9-cu mərtəbə) keçiriləcəkdir. İştirak etmək istəyənlər (012) 489 08 94 nömrəli telefona zəng vurmaqla və ya seminar@elmfondu.az elektron poçt ünvanına məktub yazmaqla qeydiyyatdan keçə bilərlər. Seminarlarda iştirak üçün qeydiyyatdan keçmiş, lakin seminarda iştirak etməyən iddiaçılar növbəti seminara yalnız yer olduğu təqdirdə buraxılacaqlar; xahiş olunur nəzərə alasınız ki, seminarda iştirak etməməklə başqa potensial iddiaçının iştirakını məhdudlaşdırırsınız. Seminarlarda yalnız qeydiyyatdan keçmiş iştirakçılar iştirak edə bilər.

| № | TARİX | SAAT |
|---|---|---|
| **1-ci seminar** | 27.03.2023 | 15.00 |
| **2-ci seminar** | 03.04.2023 | 11.00 |
| **3-cü seminar** | 10.04.2023 | 15.00 |
| **4-cü seminar** | 17.04.2023 | 11.00 |
| **5-ci seminar** | 01.05.2023 | 15.00 |

AZƏRBAYCAN
ELM FONDU

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı:
*info@elmfondu.az*